# Paytaxt məktəblərində yeniliklər

## "Heydər Əliyev irsinin öyrənilməsi" mövzusunda dərslər keçiriləcək



Bakı Şəhəri üzrə Təhsil İdarəsinin təşkilatçılığı ilə paytaxtdakı ümumi təhsil məktəblərində "Heydər Əliyev irsinin öyrənilməsi" mövzusunda dərslər keçiriləcək.

"Heydər Əliyev irsinin öyrənilməsi" mövzusunda dərslərin təşkilində əsas məqsəd ulu öndərin dövlətçilik siyasəti və azərbaycançılıq məfkurəsinin öyrənilməsi, onun zəngin irsinin tədqiqi və təbliği, şagirdlərin müvafiq biliklərinin zənginləşdirilməsi, ölkəmizin dövlət quruculuğu prosesində ümummilli liderin rolunun və xidmətlərinin gənc nəslə çatdırılmasından ibarətdir.

Dərslər 2017-ci ilin yanvar-may aylarında paytaxtın 12 rayonu üzrə 37 mərkəzdə tədris olunacaq. Dərslərdə BŞTİ-nin tabeliyində fəaliyyət göstərən 305, Təhsil Nazirliyinin birbaşa tabeliyindəki 18 və paytaxtda yerləşən məcburi köçkün məktəblərində təhsil alan 20741 nəfər XI sinif şagirdi iştirak edəcək. Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı müxtəlif mövzuları əhatə edəcək dərslərin tədrisi ilə əvvəlcədən müəyyənləşdirilmiş müəllimlər məşğul olacaq.

Məktəblilərin potensial imkanlarının üzə çıxarılması baxımından mühüm əhəmiyyət kəsb edən bu dərslər şagirdlərin milli-mənəvi dəyərlərə malik, sağlam əqidəli, vətənpərvər, müasir dünyagörüşlü şəxsiyyət kimi formalaşmasına, yetkin vətəndaş kimi müstəqil həyata hazırlanmasına xidmət edir.

## Eksternat qaydasında imtahan keçiriləcək



Müxtəlif səbəblərdən ümumi orta təhsil səviyyəsini (IX sinif) bitirməyən şəxslər üçün 2017-ci ilin yanvarında eksternat qaydasında imtahan keçiriləcək.

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası tərəfindən təsdiq edilmiş "2016-2017-ci tədris ilində ümumi təhsil müəssisələrinin şagirdləri haqqında məlumatların "Şagird-məzun" sisteminə daxil edilməsi və yekun qiymətləndirmənin aparılması ilə əlaqədar şəhər (rayon) təhsil şöbələri (təhsil idarələri) və ümumi təhsil müəssisələri tərəfindən yerinə yetiriləcək işlərin Təqvim planı"na əsasən, ümumi orta təhsil səviyyəsində buraxılış imtahanlarının yeni təhsil proqramları (kurikulumları) üzrə birinci mərhələsinin keçirilməsi təmin ediləcək.

Bu məqsədlə eksternat qaydada ümumi orta təhsil haqqında sənəd almaq istəyən şəxslərin məlumatlarının fərdi identifikasiya nömrəsi (FİN) əsasında 15 yanvar 2017-ci il tarixinədək "Şagird-məzun" sisteminə daxil edilməsi nəzərdə tutulub.

Ümumi orta təhsil kursu üzrə eksternat qaydada imtahanlarda iştirak etmək üçün 16 yaşı tamam olmuş şəxslərin ərizə qəbulu 19-30 dekabr 2016-cı il tarixlərində hər həftənin I-V günləri saat 9:00-dan 18:00-dək Bakı Şəhəri üzrə Təhsil İdarəsində həyata keçiriləcək.

İştirakçılar ərizəyə aşağıdakı sənədləri əlavə etməlidirlər:

*1. Təhsil aldığı sonuncu məktəbdən arayış;*

*2. Şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;*

*3. 3x4 sm. ölçüdə 2 ədəd fotoşəkil;*

*4. 18 yaşına çatmış hərbi mükəlləfiyyətli şəxslər hərbi biletin və ya hərbi qulluqdan kənarda qalmağa əsas verən sənədin notarial qaydada təsdiq edilmiş surəti.*

Tam orta təhsil səviyyəsi üzrə (XI sinif) eksternat qaydasında imtahanların tarixi haqqında əlavə məlumat veriləcək.

## Məktəblilərin peşə təhsilinə marağının artırılması üçün ekskursiyalar




Paytaxt məktəblilərinin peşə təhsilinə marağının artırılması məqsədilə ekskursiyalar təşkil olunub.

Bakı şəhərinin 7, 10, 24, 164 nömrəli tam orta məktəbləri və Məktəb-Lisey Kompleksinin VIII, IX və X sinif şagirdləri üçün Azərbaycan Sahibkarlar Konfederasiyası tərəfindən "Cənubi Qafqazda məşğulluq səviyyəsinin yüksəldilməsi və sahibkarların peşə təhsilinə verə biləcəyi dəstək" layihəsi çərçivəsində təşkil edilən ekskursiyalarda şagirdlərə əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə təlimat verilib.

Şagirdlər Dövlət Neft Şirkətinin Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin Kadr Hazırlığının Təşkili Mərkəzində emalatxana və təlim otaqları ilə tanış olublar. Məktəblilər elektrik qaz qaynaqçısı, plastmas qaynaqçısı, nasos qurğularının maşinisti, elektrik montyoru, nəzarət ölçü cihazları üzrə çilingər, təmirçi çilingər peşələrinin qaydaları, prinsipləri və peşə üstünlükləri barədə məlumatlandırılıblar.

Dekabrın sonunadək Bakı şəhərindəki 31 və 32 nömrəli tam orta məktəblərdə təhsil alan şagirdlərin də ekskursiyalarda iştirakı təmin olunacaq.

## Beynəlxalq Aptis İmtahanı keçirilib



Dekabrın 15-də paytaxt məktəbliləri üçün "Uğur üçün tədris" (SPEX) layihəsinin ilkin mərhələsi olan Beynəlxalq Aptis İmtahanı keçirilib. Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu və "British Council"in birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən layihəyə 56 pilot məktəb cəlb olunub.

İmtahanlarda pilot məktəbdən 300 və pilot olmayan məktəblərdən 100 nəfər VII-VIII sinif şagirdi iştirak edib.

İmtahan zamanı şagirdlərin ingilis dilində yazı, oxu, dinləmə və danışıq bacarıqları qiymətləndirilib.

www.baku.edu.gov.az